# Elm zirvələrinə aparan 80 illik yol

## *AMEA-nın Geologiya və Geofizika İnstitutunun 80 illiyi münasibətilə elmi sessiya*



***Noyabrın 15-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Geologiya və Geofizika İnstitutunun 80 illik yubileyinə həsr olunmuş elmi sessiya işinə başlayıb.***

Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək, ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə əklil və gül dəstələri qoyublar.

AMEA-nın əsas binasında təşkil olunan tədbirdə görkəmli dövlət və elm xadimləri, ictimai və beynəlxalq təşkilatların nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar, müxtəlif dövlət qurumlarının və ali təhsil müəssisələrinin rəhbərləri, AMEA-nın həqiqi və müxbir üzvləri, institut və təşkilatlarının direktorları iştirak ediblər.

Tədbirdə AMEA-nın prezidenti, Geologiya və Geofizika İnstitutunun direktoru, akademik Akif Əlizadə institutun 80 ildə şərəfli yol keçdiyini, ölkəmizdə geologiya elminin inkişafında mühüm rola malik olduğunu söyləyib. Bildirib ki, bu elmi müəssisə uzun illər ərzində geoloji elmlərin inkişafına, respublika ərazisinin geoloji quruluşunun, geodinamik şəraitinin, palçıq vulkanizminin və geoloji proseslərin riyazi modellərinin öyrənilməsi sahəsində fundamental və tətbiqi məsələlərin həllinə, həmçinin Azərbaycanın mineral-xammal bazasının yaradılması və möhkəmləndirilməsinə, neft strategiyasının həyata keçirilməsinə böyük töhfələr verib.

Akademik Akif Əlizadə institutun alimlərinin elmi nailiyyətlərinin hər zaman dövlət tərəfindən yüksək qiymətləndirildiyini deyib. Bu günlərdə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən Geologiya və Geofizika İnstitutunun bir qrup əməkdaşının fəxri adlara layiq görüldüyünü, orden və medallarla təltif edildiyini xatırladan AMEA-nın rəhbəri bu sənədin elmimizə göstərilən diqqət və qayğıya daha bir nümunə olduğunu vurğulayıb.

AMEA-nın prezidenti institut əməkdaşlarının gələcəkdə də elmi tədqiqatlarda yeni geofiziki üsullar və müasir texnologiyalar tətbiq edərək yeni neft-qaz yataqlarının və faydalı qazıntıların axtarışı, kosmik texnologiyalar bazasında geoloji təhlükəli proseslərin öyrənilməsi ilə Azərbaycanın sosial-iqtisadi inkişafına töhfə verəcəklərinə əminliyini bildirib, yubiley münasibətilə institutun kollektivini təbrik edib.

Sonra Geologiya və Geofizika İnstitutu direktorunun elmi işlər üzrə müavini, AMEA-nın müxbir üzvü Dadaş Hüseynov "Elm zirvələrinə aparan 80 illik yol" mövzusunda məruzə ilə çıxış edib.

Alim Geologiya və Geofizika İnstitutunun yaranma tarixinin 1923-cü ildə Azərbaycanın öyrənilməsi və tədqiqi cəmiyyətinin yaradılması ilə başlandığını bildirib: "1932-ci ildə bu cəmiyyətin bazasına əsaslanaraq Azərbaycanın təbii sərvətlərinin öyrənilməsi məqsədi ilə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan bölməsi (AzFAN) yaradılıb. 1935-ci ildə AzFAN-ın bazasında geologiya da daxil olmaqla bir sıra elmi istiqamətləri əhatə edən sektorlardan ibarət SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı təsis edilib. 1938-ci ildə Azərbaycanın görkəmli alimləri – Ş.Əzizbəyov, M.Qaşqay, Ə.Yaqubovun təklifi və SSRİ Elmlər Akademiyasının Rəyasət Heyətinin dəstəyi ilə geologiya sektoru bazasında müstəqil elmi-tədqiqat idarəsi olan Geologiya İnstitutu yaradılıb. 2014-cü ildə isə bu müəssisənin adı dəyişdirilərək Geologiya və Geofizika İnstitutu adlandırılıb".

Geologiya sahəsindəki elmi məktəblərdən danışan D.Hüseynov bildirib ki, ölkəmizdə 1927-ci ildən əsası qoyulan paleontologiya-stratiqrafiya tədqiqatları institutunda 1950-ci ildə akademik M.Əliyevin rəhbərliyi ilə paleontologiya və stratiqrafiya şöbəsi açıldıqdan sonra sürətlə inkişaf edib. Bu şöbənin tərkibində sonralar mezozoy, kaynozoy, paleozoy, mikrofauna və biogeokimya laboratoriyaları təşkil olunub.

Alim bildirib ki, Geologiya və Geofizika İnstitutunda yaranan böyük elmi istiqamətlərdən biri də geofizika məktəbidir. Seysmologiya və geodinamika, qravimetriya, radiometriya, maqnitometriya, geotermiya və süxurların fiziki xassələrinin öyrənilməsi istiqamətində bir çox mühüm nəticələr əldə edilib. Hazırda Geologiya və Geofizika İnstitutu bir çox fundamental və tətbiqi xarakterli tədqiqatları həyata keçirən iri beynəlxalq elmi mərkəzdir. Burada neft geologiyası, palçıq vulkanizmi, paleontologiya və stratiqrafiya, litologiya, geofizika, geotektonika və geodinamika, neft və qaz yataqlarının işlənilməsi sahəsində elmi məktəblər yaranıb. Elmi nailiyyətlərin və təcrübənin nəsildən-nəslə ötürülməsi nəticəsində geologiya və geofizika, neft yataqlarının istismarı və işlənilməsi sahəsində yaranmış fundamental və tətbiqi araşdırmalar aparan məktəblər qorunub saxlanılıb.

Tədbirdə SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlı, Ukrayna Milli Elmlər Akademiyasının (MEA) baş elmi katibinin birinci müavini, Ukrayna MEA-nın müxbir üzvü Vladimir Yemelyanov, AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev, Rusiya Elmlər Akademiyasının Geologiya İnstitutunun direktor müavini, geologiya-mineralogiya elmləri doktoru Vasili Lavruşin, Bakı Dövlət Universitetinin faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə, geologiya-mineralogiya elmləri doktoru, professor Hikmət Mahmudov və digər çıxış edənlər institutun yaranma tarixindən, fəaliyyət istiqamətindən, burada həyata keçirilən layihə və tədqiqatlardan, uğurlu nəticələrdən danışıb, qurumun geologiya elminə böyük töhfə verdiyini bildiriblər. Çıxış edənlər elmi müəssisənin kollektivinə uğurlar arzulayıblar.

Sonra Geologiya və Geofizika İnstitutunun 80 illik yubileyinə həsr olunan sənədli film nümayiş edilib.

Elmi sessiya işini noyabrın 16-da Geologiya və Geofizika İnstitutunda elmi məruzələrin dinlənilməsi ilə davam etdirəcək.

***AZƏRTAC***